**Azərbaycan - Monteneqro Mədəni və İqtisadi Mərkəzi**
**Kulturno - ekonomski centar Azerbajdžana - Crne Gore**
**Azerbaijan - Montenegro Cultural and Economic Centre**

***Podgorica, Nova Dalmatinska 49, tel: + 382 20 273 370, e-mail: az.mn.cec@gmail.com***

# Azərbaycan – Monteneqro Mədəni və İqtisadi mərkəzinin 2018-ci ildəki fəaliyyətinə dair HESABATI

Monteneqronun paytaxtı Podqoritsa şəhərində fəaliyyət göstərən Azərbaycan - Monteneqro Mədəni və İqtisadi Mərkəzi (qeyri-hökumət təşkilatı) 2018-ci ildə də aktiv fəaliyyətini davam etdirmiş, Azərbaycanın tarixi və mədəniyyətinin təbliği məqsədilə bir sıra tədbirlər həyata keçirilmiş və əməli işlər görülmüşdür.

Belə ki, 20 yanvar və Xocalı soyqırımı ilə bağlı məqalələr dərc etdirilmiş, anım tədbirləri keçirilmiş, Novruz Bayramı tədbiri, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş şahmat turniri, AXC-nin yaranmasının 100 illiyi münasibətilə elmi konfrans təşkil olunmuş, “Arşın Mal Alan” filmi nümayiş etdirilmiş, bir sıra məqalələr və müsahibələr verilmiş, Azərbaycan incəsənət xadimlərinin sərgiləri keçirilmişdir. 2018-ci ildə Mərkəzin yeni internet səhifəsi və youtube kanalı istifadəyə verilmiş, sosial şəbəkələr vasitəsilə təbliğat işləri daha da genişləndirilmişdir.

İl ərzində Mərkəzin direktoru humanitar və iqtisadi sahədə ikitərəfli əməkdaşlıq əlaqələrinin müzakirəsi məqsədilə Monteneqronun bir sıra hökumət nümayəndələri ilə görüşlərdə iştirak etmiş, müxtəlif tədbirlərə qatılmış, Mərkəzdə Monteneqronun tanınmış elm adamları, ictimai, ədəbiyyat və incəsənət xadimləri ilə çoxsaylı görüşlər keçirilmişdir.

Göstərilən fəaliyyətlərlə www.azcec.me internet səhifəsindən, həmçinin Mərkəzin twitter, facebook, instagram hesablarından və youtube kanalından tanış olmaq olar.

Qeyri-hökumət təşkilatı kimi Mərkəz imkanlarının məhdud olmasına baxmayaraq, növbəti illərdə də Azərbaycanın tarix və mədəniyyətinin təbliği istiqamətində fəaliyyəti davam etdirmək və Mərkəz üçün ayrılmış ofisin saxlanılması üçün bütün imkanları əsirgəməmək əzmindədir.

Mərkəz, 2017-ci ilin 25 sentyabr tarixindən yeni ünvanda fəaliyyətini davam etdirməyə başlamışdır. Belə ki, aktiv və səmərəli fəaliyyətinə görə, Mərkəz, Monteneqro Nazirlər Kabinetinin qərarı ilə paytaxt Podqoritsa şəhərində 210 m2-lik ofislə təmin edilmişdir.

**Yanvarın 18-də** Mərkəzin direktoru Seyran Mirzəzadənin "Palitranews" portalında və qəzetində "Müstəqillik tariximizlə bir daha qürur duyduq" başlıqlı müsahibəsi dərc olunmuşdur.

Müsahibədə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd edilməsi ilə bağlı sərəncamının əhəmiyyəti vurğulanmış və Monteneqroda keçirilməsi nəzərdə tutulan tədbirlər haqqında məlumat verilmişdir.

**Yanvarın 19-da** Mərkəzin direktoru Seyran Mirzəzadə Monteneqronun "Volimpodgoricu" portalının baş redaktorunun suallarını cavablandıraraq, Azərbaycan-Monteneqro əlaqələri, Mərkəzin fəaliyyət istiqamətləri, məramı və planları barədə ətraflı məlumat verib.

**Mərkəz tərəfindən Monteneqronun "dijaspora.news" xəbər portalında 20 Yanvar faciəsindən bəhs edən məqalə dərc olunub.**

Məqalədə 20 Yanvar faciəsinin başvermə səbəblərindən, Azərbaycan xalqının müstəqillik uğrundakı mübarizəsindən, nümayiş etdirdiyi qəhrəmanlıqdan bəhs edilib. Yazıda 20 Yanvar faciəsinin azadlıq, müstəqillik uğrunda mübarizə aparan xalqın inamını sarsıtmaq, iradəsini qırmaq, milli mənliyini məhv etmək məqsədilə törədilmiş qanlı terror aktı olduğu bildirilib. Vurğulanıb ki, 20 yanvar ümumxalq hüzn günü olmaqla yanaşı, Azərbaycan xalqının milli tarixinin qəhrəmanlıq səhifəsidir.

**Fevralın 7-də** Mərkəzin direktoru Seyran Mirzəzadə Monteneqronun "MNEMagazine" portalına müsahibəsində Azərbaycan-Monteneqro əlaqələri, Mərkəzin fəaliyyət istiqamətləri, məramı və planları barədə ətraflı məlumat verib.

**Fevralın 8-də** "PASHA Travel" şirkətinin struktur bölməsi olan "PASHA Holidays" tərəfindən Monteneqronun Tivat şəhərinə təşkil olunacaq birbaşa reyslərlə bağlı bu ölkənin turizm imkanlarının Bakıda təqdimatı keçirilib. Tədbirdə, Monteneqro Milli Turizm

Təşkilatının direktor müavini Maya Lijeseviç və Azərbaycan - Monteneqro Mədəni və İqtisadi Mərkəzinin direktoru Seyran Mirzəzadə də iştirak etmişlər.

**Fevralın 22-də** Bosniya və Herseqovinanın paytaxtı Sarayevo şəhərində Azərbaycanın bu ölkədə, Serbiya və Monteneqrodakı səfirliyinin dəstəyi və təşkilatçılığı ilə Xocalı soyqırımının 26-cı ildönümünə həsr edilmiş konfrans və Parlament Jurnalistləri Birliyinin sədri Elşad Eyvazlının müəllifi olduğu 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda hər iki valideynini itirmiş uşaqların acı xatirələrindən bəhs edən "Böyüməyən uşaqlar" kitabının boşnak dilində təqdimatı keçirilib. Konfransda Azərbaycan və Bosniya və Herseqovinadan deputatlar, nüfuzlu hüquqşünaslar, elm adamları, tanınmış ictimai-siyasi xadimlər, qeyri-hökumət təşkilatları, diplomatik korpus və KİV nümayəndələri iştirak ediblər. Konfrans iştirakçıları əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla anıblar. Xocalıda valideynlərini itirmiş Səbinə Məhərrəmova və Murad Hüseynov 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda həmin dəhşətli gecədə yaşadıqları acı xatirələri bölüşüblər.

Tədbirin sonunda Srebrenitsa və Xocalı soyqırımları zamanı hər iki valideyni qətlə yetirilən uşaqların dünya xalqlarına müraciəti oxunub.

Konfrans iştirakçıları həmin gün Sarayevo şəhərində Heydər Əliyev Fondunun təşəbbüsü, Azərbaycan dövlətinin maliyyə dəstəyi ilə əsaslı təmir və bərpa edilmiş "Dostluq parkı"nda Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət ediblər. Abidə önünə əklil qoyan tədbir iştirakçıları faciə qurbanlarının xatirəsini anıblar.

Həmçinin, Xocalı soyqırımının 26-cı ildönümü ilə bağlı Beynəlxalq Sarayevo Universitetinin sərgi zalında bu faciəyə həsr olunmuş foto və rəsm sərgisi təşkil edilib, "J-Connect" təşkilatı tərəfindən çəkilmiş "Zülmətdən qaçarkən" və Elşad Eyvazlının "Böyüməyən uşaqlar" adlı sənədli filmləri nümayiş olunub.

Mərkəz tədbirin hazırlanmasında fəal iştirak etmiş və mərkəzin direktoru Seyran Mirzəzadə tədbirə qatılmışdır.

**Fevraın 26-da** Azərbaycan - Monteneqro Mədəni və İqtisadi Əlaqələr Mərkəzinin üzvü Sanida Şabotiçin Monteneqronun www.dijaspora.news və www.volimpodgoricu.me internet portallarında "Bu gün Azərbaycan xalqına qarşı dəhşətli cinayət törədilmişdir" başlıqlı məqaləsi dərc edilib. Məqalədə 26 il əvvəl erməni silahlı qüvvələri tərəfindən Azərbaycan xalqına qarşı dəhşətli cinayət və soyqırım törədildiyi, Azərbaycan ərazilərinin ermənilərin əsassız ərazi iddiaları nəticəsində təcavüzlə işğal olunduğu, bir milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün düşdüyü bildirilib. Uşaq, qadın və qocaların belə xüsusi amansızlıqla qətl edildiyi vurğulanıb. Bütün bunlara baxmayaraq Azərbaycan

dövlətinin münaqişənin sülh yolu həll olunması istiqamətində səylərini davam etdirdiyi, BMT TŞ-nin işğal olunmuş ərazilərin qeyd şərtsiz azad olunması haqqında qətnamələrinin yerinə yetirilməsi məqsədilə beynəlxalq təşkilatlarla əməkdaşlıq etdiyi, cinayətkarların beynəlxalq hüququn prinsipləri çərçivəsində cəzalandırılmasını tələb etdiyi bildirilib. Məqalə, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırım, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir" sözləri, soyqırım qurbanların xatirəsinin yad edilməsi və belə cinayətlərin bir daha təkrarlanmaması üçün bəşəriyyətin də məsuliyyət daşıması fikri ilə yekunlaşıb.

**Fevralın 15-dən martın 1-nə** qədər Azərbaycan-Monteneqro İqtisadi və Mədəni Əlaqələr Mərkəzinin təşkilatçılığı ilə Monteneqronun bir sıra şəhərlərində Xocalı soyqırımını əks etdirən bilbordlar quraşdırılıb.

**Martın 21-də** Azərbaycan–Monteneqro İqtisadi və Mədəni Mərkəzinin təşkilatçılığı ilə Podqoritsa şəhərinin ən böyük "Delta" ticarət mərkəzində baharın gəlişini, sülh və dostluğu təcəssüm etdirən Novruz bayramı münasibətilə təntənəli tədbir keçirilib.

Tədbirdə Azərbaycandan Monteneqroya ezam olunmuş kulinariya üzrə mütəxəssislər tərəfindən hazırlanmış milli mətbəximizin ləziz təamları və bayram şirniyyatları təqdim edilib, milli musiqimizdən, xüsusilə də 2018-ci ildə anadan olmasının 100-cü ildönümü qeyd olunan görkəmli bəstəkarımız Qara Qarayevin ölməz əsərlərindən nümunələr səsləndirilib.

Həmçinin, ticarət mərkəzinin LED ekranlarında Azərbaycanın paytaxtı Bakının Beynəlxalq Sərgilər Bürosunun 2025-ci ildə keçiriləcək Ümumdünya Sərgisinə namizəd şəhər olmasına dair çəkilmiş videoçarx nümayiş etdirilib və mərkəzin ziyarətçilərinə Bakının namizədliyinin üstünlükləri barədə geniş məlumat verilib.

Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin musiqiçi və rəqqaslar qrupu tərəfindən canlı ifa olunan "Ay qız", "Unuda bilmirəm", "Uzundərə", "Sarı gəlin" və digər mahnılar ziyarətçilərin böyük marağına səbəb olub.

Novruz bayramının tarixi, adət-ənənələri və fəlsəfəsi barədə Monteneqro dilində hazırlanmış məlumat kitabçaları mərkəzin ziyarətçilərinə paylanılıb.

Bayram tədbiri, eyni zamanda, xeyriyyəçilik məqsədi daşıyıb. Belə ki, tədbirin təşkilatçıları "Monteneqronun uşaq hüquqlarının müdafiəsi Mərkəzi"nə bayram sovqatları

verib, eyni zamanda, toplanmış vəsait “Monteneqronun autizmdən əziyyət çəkən uşaqlar Mərkəz”inə zəruri avadanlığın alınmasına ayrılıb.

Sonra Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzi və Yunus Emre Podqoritsa İnstitutunun təşkilatçılığı ilə “Budo Tomoviç” adına Mədəniyyət Mərkəzinin böyük zalında Novruz bayramına həsr olunmuş "Türk ölkələrinin milli musiqisi və rəqsləri" adlı konsert keçirilib. Konsertdə Azərbaycanın milli musiqisi və rəqs nümunələri böyük maraq və alqışlarla qarşılanıb.

Novruz bayramı münasibətilə təşkil olunan hər iki tədbir Monteneqro KİV-lərində geniş işıqlandırılıb.

**Martın 21-də** Balkanlarda yaşayan və təhsil alan azərbaycanlı gənclərin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə qəbul etdiyi müraciətə Mərkəzin direktoru və üzvləri də qoşulmuşlar.

**Martın 30-da** Monteneqronun Baş Naziri c-b Duşko Markoviç Azərbaycan - Monteneqro Mədəni və İqtisadi Mərkəzinin də dəstək verdiyi Monteneqroda ilk autizm mərkəzinin açılışını edib.

**Martın 31-də** - Azərbaycanlıların soyqırımının 100 illiyi ilə əlaqədar Azərbaycanın Monteneqrodakı Diplomatik Nümayəndəliyində anım mərasimi keçirilmişdir.

Tədbirdə Diplomatik Nümayəndəliyin əməkdaşları, Azərbaycan – Monteneqro mədəni və iqtisadi əlaqələr Mərkəzinin rəhbərliyi və üzvləri, Monteneqroda yaşayan Azərbaycan icmasının üzvləri və təhsil alan azərbaycanlı tələbələr, Podqoritsa şəhərinin müsəlman icmasının nümayəndələri iştirak etmişlər.

Nümayəndəliyin müşaviri A.Əcəmov Azərbaycan xalqına qarşı törədilmiş soyqırımının tarixindən danışaraq, tədbir iştirakçılarına 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğın olduğunu bildirmişdir. Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəsəbələrdə on minlərlə dinc sakinin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirildiyi, yaşayış məntəqələrinin dağıdıldığı, mədəniyyət abidələri, məscid və qəbiristanlıqların yerlə-yeksan edildiyi diqqətə çatdırılmışdır. Müşavir, sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçilərinin qeyri-insani əməllərini davam etdirdiyini Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçirdiyini vurğulamışdır. O, həmçinin erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı yürüdülən etnik təmizləmə və soyqırım siyasətinin bu gün də

davam etdiyini qeyd edərək, EAM zamanı erməni cinayətkarları tərəfindən həyata keçirilmiş və öz amansızlığı ilə xüsusi seçilən vəhşiliklər, Ermənistanın ölkəmizə qarşı yürütdüyü işğalçılıq siyasəti, Xocalı faciəsi, işğal olunmuş ərazilərimizdəki mədəniyyət abidələrinin dağıdılması barədə geniş məlumat vermişdir.

A.Əcəmov 31 mart tarixinin Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunması haqqında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 26 mart 1998-ci ildə imzaladığı fərmanın böyük tarixi əhəmiyyətini vurğulamış, onun xalqımızın milli şüurunda və özünüdərketməsində mühüm rol oynadığını qeyd etmişdir.

Sonda soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı Diplomatik Nümayəndəlik tərəfindən hazırlanmış press-reliz Monteneqronun dövlət və hökumət orqanlarına, qeyri-hökumət təşkilatlarına, Monteneqroda fəaliyyət göstərən səfirlik və beynəlxalq təşkilatların nümayəndəliklərinə göndərilmişdir.

**Aprelin 16-da** Mərkəzin direktoru Seyran Mirzəzadə Azərbaycanda keçirilən prezident seçkilərində inamlı qələbə münasibətilə Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzinin üzvləri, Qərbi Balkanlardakı Azərbaycansevərlər adından Azərbaycan Prezidenti cənab İlham Əliyevə təbrik məktubu göndərib.

**Aprelin 24-də** görkəmli bəstəkarımız Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası əsasında çəkilmiş və sonradan bərpa edilmiş film Podqoritsada Monteneqro dilində altyazı ilə nümayiş olunmuşdur. Filmin təqdimatında çoxsaylı tamaşaçılar iştirak etmişlər. Azərbaycan-Monteneqro mədəni və iqtisadi Mərkəzinin direktoru Seyran Mirzəzadə filmin təqdimatından sonra filmlə bağlı televiziya kanalına müsahibə vermişdir.

**Aprelin 25-də** 2018-ci ildə “Avroviziya” mahnı müsabiqəsində Azərbaycanı təmsil edən Aysel Məmmədova Azərbaycan - Monteneqro mədəni və iqtisadi Mərkəzinin qonağı olmuş və Mərkəzdə onun üçün Monteneqro mətbuat nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilmişdir.

**Aprelin 26-da** Azərbaycan - Monteneqro mədəni və iqtisadi Mərkəzinin direktoru Seyran Mirzəzadə TRT-nin alban dilində fəaliyyət göstərən radiosuna müsahibə vermişdir.

**Mayın 2-3-də** Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə şahmat üzrə “Heydər Əliyev kuboku” turniri keçirilib.

Turniri Mərkəzin direktoru Seyran Mirzəzadə açaraq, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xidmətləri haqqında iştirakçılara məlumat verib. Seyran Mirzəzadə Ulu Öndərin 90-cı illərdə Azərbaycanın dövlət müstəqilliyini itirmək ərəfəsində olarkən xalqın istəyi ilə hakimiyyətə gəldiyini, ölkəni böyük təhlükədən xilas etdiyini diqqətə çatdırıb. O, Azərbaycan xalqının bu dahi şəxsiyyətin xidmətlərini heç vaxt unutmayacağını bildirib.

Mərkəzin direktoru Heydər Əliyevin Azərbaycanda şahmatın inkişafına xüsusi önəm verdiyini nəzərə alaraq, Ulu Öndərin anadan olmasının 95-ci ildönümü münasibətilə məhz şahmat turnirinin keçirilməsinin qərara alındığını söyləyib. Diqqətə çatdırılıb ki, dövlətin xüsusi diqqəti və dəstəyi sayəsində şahmat dünyasında Azərbaycanın özünəməxsus yeri var. Azərbaycan komandası 2017-ci ildə şahmat üzrə Avropa çempionu olub. Ölkəmizin bu titulu 8 il ərzində üç dəfə qazanması tarixi uğurdur.

Monteneqro Şahmat Birliyinin prezidenti Radoyicsa Qrba çıxışında Heydər Əliyevin Azərbaycan xalqının rifahı üçün göstərdiyi xidmətlərdən təsirləndiyini, xalqların böyüklüyünün öz tarixi şəxsiyyətlərinə verdiyi dəyərlə ölçüldüyünü və bu mənada azərbaycanlıların böyük xalq olduğunu bildirib. O, belə bir turnirin təşkilatçısı olmaqdan şərəf duyduqlarını ifadə edib. Vurğulayıb ki, Azərbaycan şahmat dünyasında sayılıb-seçilən güclü rəqiblərdəndir.

Turnirdə Monteneqronun ilk qrossmeysteri, dəfələrlə şahmat üzrə ölkə çempionu, keçmiş Yuqoslaviyanın 5 qat çempionu, bir sıra beynəlxalq turnirlərin qalibi, Monteneqronun sabiq idman naziri Bojidar İvanoviç, eləcə də Nikola Dukiç, Neboyşa Nikçeviç, Blajo Kaleziç, Boro Milyaniç, Predrag Nikaç, Vladimir Paykoviç, Andrey Sukoviç kimi tanınmış şahmat ustaları, Monteneqronun yığma və olimpiya komandasının üzvləri, qrossmeysterləri, beynəlxalq ustaları və FIDE ustaları iştirak ediblər.

Seyran Mirzəzadə şahmat turnirinin təşkilinə göstərdiyi dəstəyə görə Azərbaycan Respublikasının Monteneqrodakı diplomatik nümayəndəliyinə, Monteneqronun Şahmat Birliyinə və “Azmont Investments” şirkətinə təşəkkürünü bildirib.

Turnirdə “Heydər Əliyev kubokunu” Blajo Kaleziç qazanıb. Azərbaycan Respublikasının Monteneqrodakı diplomatik nümayəndəliyinin müşaviri Anar Əcəmov və Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzinin direktoru Seyran Mirzəzadə qalib və iştirakçılara təltifləri təqdim ediblər. Təltiflərlə yanaşı, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, yazıçı-dramaturq Hüseynbala Mirələmovun və yazıçı-jurnalist Viktor Andriyanovun müəllifləri olduqları “Görkəmli insanların həyatı” silsiləsindən Monteneqro dilinə tərcümə edilmiş “Heydər Əliyev” kitabı da təqdim olunub.

**Mayın 18-də** Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzinin təşkilatçılığı ilə Monteneqronun Donya Qoritsa Universitetində Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan və Monteneqro Birinci Dünya müharibəsindən sonra" mövzusunda konfrans keçirilib.

Azərbaycanın Monteneqrodakı diplomatik nümayəndəliyinin, Azərbaycan-Monteneqro mədəni və iqtisadi mərkəzinin, Donya Qoritsa Universitetinin, Geopolitika Mərkəzinin təşkilatçılığı və "Azmont İnvestments" şirkətinin dəstəyi ilə keçirilən konfransda bu ölkənin dövlət qurumlarının və burada akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, universitetin müəllim və tələbə heyəti, mətbuat nümayəndələri iştirak ediblər.

Konfransı açan professor Milan Podunavaç Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş tədbirə Donya Qoritsa Universitetinin ev sahibliyi etməsindən şərəf duyduğunu bildirib. Azərbaycanın Monteneqroya dost ölkə olduğunu deyən professor hər iki respublikanın dövlətçilik tarixinin araşdırılmasının konfrans iştirakçıları və tələbələr üçün maraqlı olacağına əminliyini diqqətə çatdırıb.

Azərbaycan–Monteneqro mədəni və iqtisadi mərkəzinin direktoru Seyran Mirzəzadə Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibətilə il ərzində həm respublika daxilində, həm də müxtəlif ölkələrdə silsilə tədbirlər keçirildiyini və 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edildiyini vurğulayıb. O, Birinci Dünya müharibəsinin sonunda – 1918-ci ildə Monteneqronun müstəqilliyini itirdiyini, Azərbaycanın isə istiqlaliyyətini əldə etməsinə rəğmən Cümhuriyyətin ömrünün qısa olduğunu və beləliklə, hər iki xalqın həmin dövrdə oxşar tale yaşadığını xatırladıb. S.Mirzəzadə konfrans iştirakçılarının hər iki ölkənin tarixi haqqında maraqlı faktlar əldə edəcəyinə əminliyini qeyd edib.

Konfransda Monteneqronun Geopolitika Mərkəzinin direktoru professor Jivko Andriyaşeviç "Monteneqro Yuqoslaviya Krallığının tərkibində", Adnan Prekiç "Monteneqro 1918 - itirilmiş gözləntilər", Radenko Sçekic, "Monteneqro 1988-ci ildən sonrakı geopolitik dəyişikliklər dövründə" mövzularında və Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Vasif Qafarov "Müstəqil Azərbaycan Cümhuriyyətinin yaradılması uğrunda mübarizə", "Gənc Diplomatların Peşəkar İnkişafına Dəstək" İctimai Birliyinin sədri Fərid Muradov "Müsəlman Şərqində ilk demokratik respublikanın beynəlxalq ictimaiyyətdə tanınması", İctimai Birliyin sədr müavini Azad Abıyev "Bakı - dünya müharibələrinin qəhrəman şəhərlərindən biri" mövzularında çıxışlar ediblər.

**Mayın 21-də** Diaspor və İctimai Təşkilatların Əməkdaşlıq Platforması çərçivəsində könüllü olaraq keçirilən “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi” kampaniyasına Monteneqrodakı soydaşlarımız da qoşulublar və Monteneqronun paytaxtı Podqoritsa şəhərində böyük Azərbaycan mütəfəkkiri Hüseyn Cavidin büstünün və Azərbaycanın dövlət gerbinin yerləşdiyi ünvandan soydaşlarımız dünya azərbaycanlılarına təbrik mesajlarını göndəriblər. Həmçinin, yerli xalqa Azərbaycan Xalq Cümhuriyyəti haqqında monteneqro dilində hazırlanmış məlumat vərəqələri və “ADR 100th anniversary - 1918-2018” döş nişanları paylanılıb.

“Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi” kampaniyasının təşkilatçıları Azərbaycan Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü Nərgiz Xələf və Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri Fuad Hüseynzadə idi. Kampaniyanın məqsədi Diaspor və İctimai Təşkilatların Əməkdaşlıq Platforması adı altında dünya azərbaycanlılarında komanda işini aktivləşdirmək, xaricdəki soydaşlarımızın həmrəyliyini gücləndirmək olmuşdur. Kampaniyaya 11 ölkədən (ABŞ, Kanada, Norveç, Monteneqro, Rusiya, Almaniya, Hollandiya, Polşa, Türkiyə, Ukrayna və Kipr) diaspor təşkilatları qoşulub. Ayrıca Azərbaycandakı 20-dən artıq QHT bu kampaniyanın virtual təbliğatını aparıb.

**Mayın 25-də** Azərbaycan Mərkəzin direktoru Seyran Mirzəzadə AXC-nin yüz illiyi ilə bağlı Bakı Avrasiya Universitetində keçirilən "Diaspor dərsi"nə virtual olaraq qoşulub və tələbələrlə öz fikirlərini, tövsiyələrini bölüşüb. Maraqlı və zəruri təşəbbüsə görə QHT-lərə Dövlət Dəstəyi Şurasına, Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinə və Bakı Avrasiya Universitetinə dəstək və yüksək təşkilatçılığa görə təşəkkürü bildirib.

**Mayın 28-də** Azərbaycan–Monteneqro mədəni və iqtisadi mərkəzinin təşəbbüsü ilə Monteneqro mətbuatında AMEA-nın A.A.Bakıxanov adına tarix institutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, doçent Vasif Qafarovun "Müstəqil Azərbaycan Cümhuriyyətinin yaradılması uğrunda mübarizə" adlı məqaləsi yayımlanıb

**Mayın 30-da** Azərbaycan - Monteneqro mədəni və iqtisadi Mərkəzinin direktoru Seyran Mirzəzadə Monteneqronun “777” televiziya kanalına müsahibəsində Azərbaycan Xalq Cümhuriyyətinin tarixi, müasir Azərbaycan və iki ölkə arasında əlaqələr haqqında ətraflı məlumat vermişdir.

**İyunun 2-də** tarixində Azərbaycan - Monteneqro Mədəni və iqtisadi mərkəzinin direktoru Seyran Mirzəzadənin “Kaspi” qəzetində iki ölkənin dostluq və əməkdaşlıq əlaqələrinə dair geniş müsahibəsi yayımlanıb.

**İyunun 6-da** Mərkəzin direktoru Seyran Mirzəzadə Podqoritsa Tibb Litseyində şagirdlərlə görüşüb və Litseyə divardan asılan şahmat lövhəsi bağışlayıb. Görüşdə Podqoritsa Tibb Litseyinin şagirdi Bəxtiyar Vahabzadənin "Mənim anam" şeirini Monteneqro dilində ifa edib. Litseyin müəllim heyəti və şagirdlərinə səmimi qarşılanmaya, Azərbaycanın gözəl təqdimatına, poeziyamızın nümunələrini Monteneqro dilində ifa etdiklərinə görə təşəkkürünü bildirib.

**İyunun 12-də** Mərkəz tərəfindən Monteneqro mətbuatında Naftalan neftinin müalicəvi özəllikləri barədə məqalə dərc etdirilib.

**İyunun 14-də** Azərbaycan - Monteneqro Mədəni və İqtisadi Mərkəzində Monteneqroda Uşaqların Hüquqlarının Müdafiəsi mərkəzinin rəhbərliyi və Mərkəzdə qeydiyyatda olan uşaqlarla görüş keçirilmişdir. Görüşdə əməkdaşlıq imkanları müzakirə olunmuş və Azərbaycan haqqında ətraflı məlumat verilmişdir.

**İyulun 5-də** Bakıdan Monteneqronun Tivat hava limanına mövsümün ilk birbaşa reysi gercəkləşmişdir. Mərkəzin direktoru və üzvləri Azərbaycan türistlərini hava limanında qarşılamışlar. Birbaşa uçuşlar avqust ayının 30-na qədər davam etmişdir.

**Avqustun 8-də** Azərbaycan - Monteneqro Mədəni və İqtisadi Mərkəzində Monteneqroda səfərdə olan Azərbaycanın Sahibkar Qadınlar İctimai Birliyinin Sədri və üzvlərinin Monteneqronun “Qadınlar bu gün” və Sahibkar Qadınlar Assosiasiyasının nümayəndələri ilə görüşləri təşkil olunmuşdur.

**Avqustun 23-də** Mərkəzin direktoru Seyran Mirzəzadə Monteneqroda fəaliyyət göstərən “MediaPlot” informasiya Mərkəzinə Azərbaycanın turizm və investisiya potensialı barədə müsahibə vermişdir.

**Avqustun 28-də** Mərkəzin direktoru Seyran Mirzəzadənin Monteneqronun “Pobjeda” qəzetində müsahibəsi dərc olunub. Seyran Mirzəzadə müsahibədə Azərbaycan-Monteneqro əlaqələrinin möhkəm təməllər üzərində qurulduğunu və böyük potensiala malik olduğunu deyib. Monteneqroda fəaliyyət göstərən Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzinin məqsəd və vəzifələri haqqında geniş məlumat verib. Azərbaycan mədəniyyətinin təbliği məqsədilə bir sıra sənədli və bədii filmlərin Monteneqro dilinə tərcümə olunaraq nümayiş etdirildiyini, Novruz bayramı, idman turnirləri, elmi konfransların təşkil edildiyini bildirib. İqtisadi sahədə də potensial imkanların olduğunu, mərkəzin bütün sahələrdə, xüsusilə də mədəni və iqtisadi sahədə əməkdaşlığın daha genişləndirilməsi və dərinləşdirilməsi üçün körpü rolunu oynamağa çalışdığını qeyd edib. İki ölkə arasında münasibətlərin səmimi dostluğa əsaslandığını vurğulayıb. Monteneqronun

Azərbaycan turistləri üçün sevimli turizm istiqamətlərindən birinə çevrildiyini və turizm əlaqələrinin inkişaf etdiyini bildirib.

**Sentyabrın 7-də** Azərbaycan - Monteneqro mədəni və iqtisadi Mərkəzində hakim koalisiyaya daxil olan Boşnak Partiyasının Gənclər forumunun sədri və üzvləri ilə görüş keçirilmiş, onlara Azərbaycan haqqında ətraflı məlumat verilmiş, çoxsaylı sualları cavablandırılmışdır.

**15-23 sentyabr tarixlərində** Azərbaycanın Əməkdar artisti Mehriban Əfəndinin Monteneqroda keçirilən "Oda to life" Beynəlxalq İncəsənət Festifalında iştirakına Mərkəz tərəfindən dəstək göstərilmişdir.

**Sentyabrın 20-də** Mərkəzin direktoru Seyran Mirzəzadə Bar şəhərində yerləşən "Yuqoslaviya" orta məktəbinin qonağı olmuş və şahmatın inkişafına dəstək məqsədilə, məktəbin şahmat bölməsinə divardan asılan şahmat lövhəsi təqdim etmişdir. Şahmat sahəsində Azərbaycanın uğurları və təcrübəsi haqqında ətraflı məlumat verilmişdir.

**Oktyabrın 18-də** Azərbaycanın Dövlət Müstəqilliyi günü münasibətilə Mərkəzin direktoru Seyran Mirzəzadə Monteneqro televiziyasının səhər proqramının qonağı olub və Azərbaycanın dövlət müstəqilliyini bərpa etdikdən sonra keçən dövr haqqında ətraflı məlumat verib.

**Oktyabrın 30-da** Mərkəzin direktoru Seyran Mirzəzadə A1 televiziya kanalının "Biznes Klub" verilişində Monteneqro iqtisadiyyatının problemləri və perspektivləri, ikitərəfli iqtisadi əlaqələr və Mərkəzin fəaliyyəti barədə sualları cavablandırmışdır.

**Oktyabrın 26-da** Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin anadan olmasının 136-cı ildönümü ilə əlaqədar Monteneqronun Podqoritsa şəhərində anma mərasimi keçirilib.

Azərbaycanın Monteneqrodakı səfirliyinin nümayəndələri, Azərbaycan-Monteneqro İqtisadi-Mədəni Mərkəzinin və Azərbaycan diasporunun nümayəndələri Podqoritsa şəhərindəki "Kral parkı"nda Hüseyn Cavidin şərəfinə ucaldılmış büstün önünə tər çiçəklər qoyaraq, ədibin xatirəsini hörmətlə yad ediblər.

**Noyabrın 2-də** Azərbaycan-Monteneqro Mədəni-İqtisadi Mərkəzində müəllif Dragan Markoviçin "Şüşə qablarda gəmilər" sərgisi keçirilmişdir. Dragan Markoviç mühəndisdir və Monteneqroda şüşə qablarda gəmilər düzəldən yeganə sənətkardır. İndiyə qədər 70-ə yaxın kollektiv və 8 fərdi sərgisi keçirilib. Bu doqquzuncu fərdi sərgisi olmuşdur. Sərgini Mərkəzin direktoru Seyran Mirzəzadə açmış, daha sonra müəllif təşkilatçı və qonaqlara təşəkkür etmişdir.

**Noyabrın 6-da** Mərkəzin direktoru Seyran Mirzəzadə yeni yaradılmış Monteneqrodakı Türkiyə Məzunları Dərnəyinin rəhbəri Erdan Seferoviçlə görüşmüşdür. Görüşdə Dərnəklə birgə fəaliyyətlər və qarşılıqlı dəstək məsələləri müzakirə edilmişdir.

**Noyabrın 17-də** Monteneqrodakı Azərbaycan - Monteneqro Mədəni - İqtisadi Mərkəzinin nəfis tərtibatda yeni internet səhifəsi (www.azcec.me) fəaliyyətə başlayıb. Mərkəzin internet səhifəsi vasitəsilə Monteneqro və Azərbaycan vətəndaşları iki ölkənin siyasi, mədəni, iqtisadi həyatı, turizmi, infrastrukturu haqqında, ikitərəfli əlaqələr, o cumlədən mərkəzin fəaliyyəti ilə baglı məlumatlarla tanış ola biləcəklər. Bununla yanaşı, saytda Ermənistanın Azərbaycana qarşı təcavüzü, "Xocalıya ədalət" kampaniyası ilə bağlı geniş məlumatlar, həmçinin faydalı linklərə keçidlər yerləşdirilib. Səhifənin mütəmadi olaraq yenilənməsi və daha da genişləndirilməsi nəzərdə tutulur.

**Dekabrın 1-də** Monteneqrodakı diplomatik korpusun iştirakı ilə ənənəvi "diplomatik xeyriyyə bazarı" təşkil olunub.

Tədbirdə ölkəmizin Monteneqrodakı diplomatik nümayəndəliyi Azərbaycan-Monteneqro mədəni və iqtisadi əlaqələr mərkəzi ilə birgə iştirak edib.

Xeyriyyə yarmarkasının keçirilməsində məqsəd monteneqroluları xarici dövlətlərin tarixi, mədəniyyəti və mətbəxi ilə yaxından tanış etməkdir. İştirakçılar tərəfindən satışa çıxarılan milli suvenirlərdən, milli mətbəx nümunələrindən əldə olunan vəsait Monteneqronun autizm mərkəzinə, uşaq evləri və xəstəxanalarına köçürülüb.

Azərbaycan üçün ayrılmış stenddə Hüseynbala Mirələmovun və Viktor Andriyanovun müəllifləri olduğu "Görkəmli insanların həyatı" silsiləsindən "Heydər Əliyev" kitabı, Azərbaycan uşaq şeirlərindən nümunələrin Monteneqro dilinə tərcümə edilmiş "İzvor Radosti" ("Sevinc Qaynağı") kitabı, milli mətbəximizin və incəsənətimizin nümunələri, İrəvan və Qarabağ xalçalarına aid kitablar nümayiş etdirilib. Milli suvenirlərimiz, mətbəximizin dadlı təamları, xüsusən paxlava və dolma iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Tədbir çərçivəsində, həmçinin Azərbaycan Dövlət Turizm Agentliyinin və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə keçirilən Milli Turizm Sammitində təqdimatı keçirilən Azərbaycanın yeni turizm brendi olan "Yenidən fərqli baxışla bax" ("Take another look") şüarı da təqdim edilib.

Tədbirdə Azərbaycan stendinə yaxınlaşan Monteneqro rəsmilərinə burada nümayiş olunan məhsullar haqqında məlumat verilib.
Xeyriyyə bazarında Azərbaycanın təqdimatı Monteneqro KİV-lərində geniş işıqlandırılıb.

**Dekabrın 3-də** Mərkəz tərəfindən Monteneqro mıtbuatında dünyada ekstremal ovçu kimi tanınan Faiq Babanlı ilə müsahibə dərc olunub.

**Dekabrın 5-də** Mərkəzin direktoru Seyran Mirzəzadə Monteneqrodakı Türkiyə Məzunlarının toplantısında "Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığı"nın Başkanı Abdullah Eren ilə görüşüb.

**Dekabrın 9-da** Azərbaycan - Monteneqro mədəni və iqtisadi mərkəzinin direktoru Seyran Mirzəzadə "Krug 99" Müstəqil İntellektuallar Assosiasiyasının təşkilatçılığı ilə Sarayevo şəhərində keçirilmiş - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi və Bosniya və Herseqovinanın dövlətçiliyinin 75 illiyinə həsr olunmuş - beynəlxalq konfransın birinci və ikinci panellərində "AXC-nin müsəlman şərqində ilk demokratik Respublika" olması və "Multikulturalizmin Azərbaycan modeli" mövzularında çıxış etmişdir.

**Dekabrın 12-də** AR-in Monteneqrodakı Diplomatik Nümayəndəliyinin, Azərbaycan-Monteneqro iqtisadi və mədəni əlaqələr Mərkəzinin birgə təşkilatçılığı ilə Podqoritsada Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilmişdir. Tədbirdə Azərbaycanın Diplomatik Nümayəndəliyin əməkdaşları ilə yanaşı, bu ölkənin ictimaiyyətin və müsəlman icmasının nümayəndələri, Azərbaycan-Monteneqro İqtisadi-Mədəni Mərkəzinin rəhbərliyi, burada yaşayan və təhsil alan azərbaycanlılar iştirak etmişlər.

Diplomatik Nümayəndəliyin müşaviri A.Əcəmov tədbirdə çıxış edərək ümummilli lider Heydər Əliyevin həyatından və zəngin siyasi fəaliyyətindən danışmışdır. O, ulu öndərin müstəqilliyimizin möhkəmlənməsində, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunda, müstəqil AR-in Konstitusiyasının qəbulunda və beynəlxalq əhəmiyyət kəsb edən neft strategiyasının reallaşmasında, ölkəmizdə sabitliyin bərqərar edilməsində, xalqımızın qədim tarixinin və zəngin mədəni irsinin beynəlxalq aləmdə tanıdılmasında, eləcə də Azərbaycan elminin inkişafında əvəzsiz xidmətləri olduğunu qeyd etmişdir.

Sonda ümummilli liderin həyat və fəaliyyətinə həsr olunan sənədli film nümayiş etdirilmişdir.

**Dekabrın 13-də** Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzində Monteneqronun tanınmış rəssamı İsmət Haciçin "Yeni rəsmlər və qrafiklər" sərgisinin açılışı və Dr. Slobodan Yerkovun "Monteneqro Müsəlmanlarının xalq mahnıları" kitabının təqdimatı keçirilmişdir. Tqədimat mərasimini mərkəzin direktoru S.Mirzəzadə açmış və daha sonra müəlliflər çıxış etmişlər.

**Dekabrın 19-da** Mərkəzin direktoru və üzvləri Podqoritsadakı "Oktoih" orta məktəbini ziyarət etmiş, məktəbin rəhbərliyi və "Valideynlər" qeyri-hökumət təşkilatının nümayəndələri ilə görüşmüşlər.

**Dekabrın 26-da** Azərbaycan-Monteneqro mədəni və iqtisadi mərkəzində Moykovac bələdiyyəsinin layihələr üzrə meneceri Yelena Vuçetiç və turizm təşkilatının direktoru Petar Vuçiniç tərəfindən Moykovaçın investisiya imkanlarının təqdimatı keçirilib.

**Dekabr 28-də** Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə təsis edilmiş və hər il ənənəvi şəkildə qeyd edilən Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Azərbaycan-Monteneqro iqtisadi və mədəni əlaqələr Mərkəzinin aktiv iştirakı və dəstəyi ilə AR-in Monteneqrodakı Diplomatik Nümayəndəliyində tədbir keçirilmişdir.

Tədbir zamanı ümummilli məqsədlərimizin gerçəkləşməsi naminə dünya azərbaycanlılarının, bütün soydaşlarımız və həmvətənlərimizin sıx birləşməsinin, mütəşəkkil qüvvə kimi formalaşmasının zəruriliyi və əhəmiyyəti diqqətə çatdırılmış, 2017-ci ildə Azərbaycanda həyata keçirilən quruculuq işləri, Azərbaycan Prezidentinin rəhbərliyi altında ölkəmizin qazandığı uğurlar, dövlətimizin nüfuzunun yüksəlməsi, əvvəlki illərdə olduğu kimi bu il də Azərbaycanın bir sıra beynəlxalq səviyyəli tədbirlərin keçirildiyi məkana çevrildiyi məmnunluqla vurğulanmışdır. Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması istiqamətində aparılan işlər haqqında məlumat verilmişdir.

Tədbirdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə AR Prezidentinin müraciəti oxunmuş və paylanmışdır.

**Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzinin 2018-ci ildəki fəaliyyəti ilə bağlı internet linkləri:**

http://palitranews.az/news.php?id=80163&fbclid=IwAR12g9-H_8DhvUfznrrYGinOZLy-BAVTr5AoJiLYs_nLyKaZd8jkSIyxTd0

https://volimpodgoricu.me/2018/01/19/seyran-mirzazada-crna-gora-je-interesantna-investitorima-iz-azerbejdzana-a-privlaci-i-nase-gradjane-kao-turisticka-destinacija/?fbclid=IwAR2jWFpwkmmFUwdhzkjQrhmsyLZ_wjfYiKqj8rG9ljj-_seArW11owh7ghU

https://azertag.az/xeber/Monteneqronun_xeber_portalinda_20_Yanvar_faciesinden_behs_eden_meqale_derc_olunub-1130132?fbclid=IwAR0J8nZjxrkPhJFrHtHLdq2VhsnnkWgDSpuViz2440gTCbxiyphezyJ3Fbs

http://www.dijaspora.news/dan-kada-je-sovjetska-armija-pocinila-strasan-zlocin-protiv-azerbejdzanskog-naroda-u-masakru-ubijena-djeca-zene-starci/?fbclid=IwAR2LR8MpP2B0MtehsAr53f0hyPq9dzXZ_UI64GoJS6DjK464EL3TcKILTaU

https://mnemagazin.me/2018/02/07/seyran-mirzazada-direktor-kulturno-ekonomskog-centra-azerbejdzana-crnogorci-prihvataju-razlicitosti-vole-ih-i-postuju/?fbclid=IwAR2IzhoXJhPJA0E2Cbh27ip97FqV9YUrQmYbVwBpDbaeSKua9urcaXpGjF4

https://azertag.az/xeber/Azerbaycanin_Monteneqro_ve_Xorvatiya_ile_turizm_sahesinde_emekdasliq_perspektivleri_muzakire_edilib-1135277?fbclid=IwAR3UmtQ0JR35xiI_tnGl22DufoZqqL7r069LFGZTG1Zg5dYx4hhASnVllHA

https://azertag.az/xeber/Sarayevoda_Xocali_soyqiriminin_26_ci_ildonumune_hesr_edilmis_konfrans_ve_Boyumeyen_usaqlar_kitabinin_teqdimati_kechirilib-1139372?fbclid=IwAR25LwK21o-6p2PMQO5Xj04mAFaALMhUnVf2qIJlHCFyjlYuHPb5uEa0lKY

http://www.dijaspora.news/da-se-nikada-ne-ponovi-na-danasnji-dan-pocinjen-je-strasan-zlocin-nad-azerbejdzanskim-narodom/?fbclid=IwAR0EUzNncNFgtHCuuClvAvgaVIPF9GK-XnYmu7ZJASHzd5HpnKqFkiQlTHc

https://volimpodgoricu.me/2018/02/26/da-se-nikada-ne-ponovi-na-danasnji-dan-pocinjen-je-strasan-zlocin-nad-azerbejdzanskim-narodom/?fbclid=IwAR06U0kWJbPeN5GRSjzHAoW_BcuG3ELwndthpimgu8d2_gVTuPMndpwzf4s

https://azertag.az/xeber/1140395

https://video.azertag.az/video/61756?fbclid=IwAR25Y7pzLNNH8MhwgNtkk-vTL-yqHX8_vPZ5WGyFM2NBajkbCrhjS-Y79oI#.WrTFJPIn1qY.facebook

https://azertag.az/xeber/1146637?fbclid=IwAR0vvpGUWi2G4tKtbL1_NEnf2YalgauWlYg7eUf4ppFMuqFQ5parzUsfMzw#.WrTFu0imjm8.facebook
https://www.youtube.com/watch?v=E6ZdSVqxsps&fbclid=IwAR0C2zJDKh0BtwqJW5AATYJ9fIhcgk2VZeYIHB_LWBH-VRKzrAeRFWWb8d0

https://mnemagazin.me/2018/03/21/kulturno-ekonomski-centar-azerbejdzana-proslava-novruza-u-delti-uz-tradicionalna-jela-novac-od-prodaje-ide-centru-za-autizam/?fbclid=IwAR3ytR_9xmfKPEjTcU-lBz6TLFX1AK4kyon-fFqHxOWjz_7HXGa5uz0fY88

http://www.moderator.az/news/218102.html?fbclid=IwAR3JRQhgjXB1zFh8HFERPm-jATBiZ38W-WchUtcUM8Pk0xUlqluev6tt2Ic

http://www.predsjednik.gov.me/vijesti/183388/Premijer-Markovic-i-ministar-Hrapovic-otvorili-Centar-za-autizam-razvojne-smetnje-i-djecju-psihijatriju-Ognjen-Rakocevic.html

https://azertag.az/xeber/Azerbaycan_Monteneqro_Medeni_ve_Iqtisadi_Merkezinin_direktoru_Seyran_Mirzezadeden-1153480

https://mnemagazin.me/2018/04/17/cineplexx-delta-city-projekcija-restaurirane-i-obojene-verzije-komedije-arsin-mal-alan-24-aprila/?fbclid=IwAR0BHfyIBp6cdtKxAKk0CE6tjtmuBT2xgtVlJ2R6_38x7G3Cm0owhmCmMzQ

https://www.cineplexx.me/movie/prodavac-rukotvorina/?fbclid=IwAR2NvDKw7sXRPRINJkdiPTKQyV1W5QsFmoQUt91gTB_hmxusJwtbKvJ7hu4

https://azertag.az/xeber/Monteneqroda_Arsin_mal_alan_filmi_numayis_olunub-1156899

https://volimpodgoricu.me/2018/04/25/predstavnica-azerbejdzana-na-eurosongu-u-podgorici-dacu-sve-od-sebe-za-najbolji-rezultat/?fbclid=IwAR0YXG2BeQgMNGzjfVRL0VR7bH6yumtLv2omxAkiN0y6NscA8zyc_TQPUgA

https://mnemagazin.me/2018/04/25/predstavnica-azerbejdzana-na-eurosongu-ajsel-mamadova-u-podgorici-zelim-da-dostojno-predstavim-svoju-zemlju/?fbclid=IwAR1X8YVKGl5xaJVd4KK7UVax4EO6q4mDJ2aGo-S9MZKOBPs0NAmayKvjttQ

http://www.trt.net.tr/shqip/kultura-dhe-arti/2018/04/26/qendra-kulturore-ekonomike-e-azerbajxhanit-promovon-kulturen-dhe-nxit-investimet-ne-mal-te-zi-958856?fbclid=IwAR1NIftiONtYqNQhuIhpzjrrO9cDsxz-mfSV3poCiilYGTBJIZKRpg7YFf0

http://www.trt.net.tr/shqip/kultura-dhe-arti/2018/04/26/qendra-kulturore-ekonomike-e-azerbajxhanit-promovon-kulturen-dhe-nxit-investimet-ne-mal-te-zi-958856?fbclid=IwAR3Y2yf0Qml4rTJ6Ns7VSbIgr_2FYDPxHCo-7qRpkp3_Y2YURF6BBn5hnIA

https://mnemagazin.me/2018/05/02/kulturno-ekonomski-centar-azerbejdzana-poceo-dvodnevni-sahovski-turnir/?fbclid=IwAR2yyJ11cZhp6l8mKWlgE9moJCnLvjTiw3L3J708EKPEcZKVPrqkmGVPDss

https://mnemagazin.me/2018/05/02/kulturno-ekonomski-centar-azerbejdzana-poceo-dvodnevni-sahovski-turnir/?fbclid=IwAR0PgGRe3Suw9ZBv_obq5Jef_vcxDE42JZPzDmDKDt54dIJcxhw7F3f92xs

http://sahcg.me/trofej-hejdara-alijeva/?fbclid=IwAR2xzLQ_hwkqnTR0e82l4Oat6cprw3f8Ep_Ft2T8kRGKu7vwz4MnSX_7yFI

https://mnemagazin.me/2018/05/05/sahovski-turnir-trofej-hejdara-alijeva-pobjednik-blazo-kalezic/?fbclid=IwAR1Td4hq2HRNCU-YWs0Ss7aEVkFgSsIRhd-60CGRItsuQXKcQBi10pzsNhM

https://azertag.az/xeber/Monteneqroda_Heyder_Aliyev_kuboku_ugrunda_sahmat_turniri_kechirilib-1159902?fbclid=IwAR050TcdjI18EUZ9nGtcjFOylHFurU7LHQxEXR6FOn51ocTXONL4WaR94sY

http://www.moderator.az/news/223926.html?fbclid=IwAR2S289_s5NycVwcWHfx2oNqXrfyg2G-lICqwFUVj8GEdP3RO9RDmky2LCs

http://aktor.az/?p=6711&fbclid=IwAR2CoVmmMAVi6m7T1BYOE0C-b2ZAO9dG-hFIwrhJwLXFuqeKZ2uztai7zSk

https://azertag.az/xeber/Monteneqroda_Heyder_Aliyev_kuboku_ugrunda_sahmat_turniri_kechirilib___VIDEO-1159902?fbclid=IwAR0PDwFgEvaXoa_FyTODbU4r90s-1cqsH0fv6FlSSOCiIIUhd5PPwKCaF9U

https://azertag.az/xeber/1164532?fbclid=IwAR38GB20YUBMFYXb1CvwSJWYX3aNQEPhrnuhrX5SKxERHWCHagwdJdaCwPA

https://azertag.az/xeber/1164532?fbclid=IwAR3QWMdWWYODUO3cpVjRXwXWg0xsR6OaSIC0gB8PKmM2Jcr73rdVmYUCBJU

http://palitranews.az/news.php?id=85880&fbclid=IwAR1wyS-cqD1qTxQCj4wbjHJO-oSKcMEFkENlEcSGPe3VYYe2BaSfMDKk-7s

http://olaylar.az/news/sosial/277451?fbclid=IwAR1YpjboVtfJeyTtQYbul5xcFWLGlLaeD4bmKn6dyyuKwU7qS2Zb7LJr5tU

https://mnemagazin.me/2018/05/18/povodom-100-godina-osnivanja-dr-azerbejdzan-odrzana-konferencija-azerbejdzan-i-crna-gora-nakon-zavrsetka-prvog-svjetskog-rata/?fbclid=IwAR3dQr6-apZsjfMp1RRXPLalCaqlrj_yCAUPq54ldL3yzWp6o9ggThMhbYY

https://www.youtube.com/watch?feature=youtu.be&v=50KZXL3GIcM&fbclid=IwAR3yi2iudPnxiyMIiTgRvjPgN5K1f8jzbX43BemZWOpUZc4bQg-PJ5C-5tM&app=desktop

http://palitranews.az/news.php?id=85880&fbclid=IwAR1s4zIp80JwwJEcrClOvNUwrUpCvVi4WBmy5fAIA7hTalsRox2_JLevexc

https://azertag.az/xeber/Baki_Avrasiya_Universitetinde_diaspor_dersi-1166496

http://www.dijaspora.news/azerbejdzanski-narod-obiljezava-100-godina-od-osnivanja-nezavisne-azerbejdzanske-republike/?fbclid=IwAR1RvJ3gQbXPdWqeVOSF38LlbMyH9cIe62WoIdYLkam_Pc2GwFAr-LKsK8A

https://volimpodgoricu.me/2018/05/28/azerbejdzanski-narod-obiljezava-100-godina-od-osnivanja-nezavisne-azerbejdzanske-republike/?fbclid=IwAR1lDRcuE1ebfPBFDV9rdkM8qxuTMQChg3VFlAKpORhDIVeSlNprcnwJvS8

https://www.youtube.com/watch?v=CfKbE6lJCEY

http://www.kaspiy.az/news.php?id=82975&fbclid=IwAR1a_FyILbQevOAJUfIe_lkvp53pBsfUSyMvFYo186I6xuJDGjzneV3ToyY#.XCDsjFVKjIV

https://m.cdm.me/ekonomija/od-danas-direktan-let-izmedu-bakua-i-tivta/

https://m.cdm.me/ekonomija/mirzazade-vjerujem-u-potencijale-crne-gore/

http://www.moderator.az/news/238113.html?fbclid=IwAR3oJhEuWvUwhQ-E2wRSf-UFgUFmNvEQW4Yv8R-u1TSHAcNqsL8FY_c86ps

http://palitranews.az/news.php?id=90598&fbclid=IwAR1JzLGPNJkPHz_rWVAGvV2-0lJlQ5JNFWPJ8OjX_tf_81Lub8Xn_yhuZJM#.W4a2cb_Vtyk.facebook

https://news.day.az/culture/1047291.html?fbclid=IwAR2A6klB0Dl8Dk7oQYdcRLKrNnGoKSMzNGYkYQjQFnwzkhJJq9b8L86-BmA

https://www.azernews.az/culture/137344.html?fbclid=IwAR1svhRyDkw2OrTRmAYu3z2DyKsdm0XQP9B7G1DtL1zd-ao3c13YFLdzPTg

https://www.trend.az/life/culture/2949702.html?fbclid=IwAR26YEghpx6c4thxeMwm4kWZNjeDMqry2eSra5MP-aJNIZVPrXIYLmv1gRI

https://www.youtube.com/watch?v=6Xz_X-8geAI

https://www.youtube.com/watch?v=IZIQIghl82U

https://azertag.az/xeber/Monteneqroda_gorkemli_dramaturq_Huseyn_Cavidin_xatiresi_yad_olunub-1208517?fbclid=IwAR0vmt6GwVNKGlkGiFvpigjxLEGdNjeplj1HSHgpZTMs3wpHs82kT2ftKEk

http://www.avropa.info/az/post/285258.html?fbclid=IwAR3jSIofmkLREx_EbZJ0v9pYtmuILgI8PYjbs0aDci8Wm3d4KaqeDCgcD8E

https://mnemagazin.me/2018/11/02/kulturno-ekonomski-centar-azerbejdzana-otvorena-izlozba-modela-brodova-u-boci-autora-dragana-markovica/?fbclid=IwAR1YsAehtLw6pwSEdg2lcmEaC-xnHdoX1P80U0mND6GIgRmYlfBjff2x6es

http://palitranews.az/news.php?id=95094&fbclid=IwAR0_1hU6sT_igqr93-YH0nzxrKRGftx3NI68EvwCnTYxCTBeSAEhtYaHrYo

http://diaspor.gov.az/xeberler/x183.php?fbclid=IwAR2EtabBvIsn_T8SfCpEgjS6rbc3TAKmfj2oJvPLyUqx7vk09LWfQhgZykQ

https://azertag.az/xeber/Monteneqroda_kechirilen_diplomatik_xeyriyye_bazarinda_Azerbaycanin_yeni_turizm_brendi_teqdim_olunub-1220484?fbclid=IwAR1DndbL_NpD_y2eyRmAikLpgG2ZxqnTHxO1FkLpNj8cYHQNkzapP7PkTug

http://www.dijaspora.news/ovo-je-najbolji-lovac-na-svijetu-lovi-gdje-ljudska-noga-nije-krocila-a-evo-kakvog-je-ukusa-srce-lava-foto/?fbclid=IwAR2F1b5V-EpG2nBgJMCgf_fn1rFvVBFjlfbtecPH_kaaCYDFHi6yuj99FZs

http://volimpodgoricu.me/2018/12/03/ovo-je-najbolji-lovac-na-svijetu-lovi-gdje-ljudska-noga-nije-krocila-a-evo-kakvog-je-ukusa-srce-lava-foto/?fbclid=IwAR2p8JLvnSDUnhSIeMDPLShKIca5GydozFcXalj_8_YqDvswkSPM9SiuI7o

http://news12.az/manset/3868-axc-nin-yuz-illiyin-hsr-olunan-diaspor-drsi-kecirilib.html?fbclid=IwAR2NcNiHB7Fg2YVMKQJRXkDrArLiy5v-bUV6XavRLzNgjMn-gCthJby0pYs

http://palitranews.az/news.php?id=90598&fbclid=IwAR1xWjX2t5narXq5EZEGz3LzGegd7jwTomxdRgIwvuXqTPbGykdNsF5RaG4#.W4a2cb_Vtyk.facebook